Azərbaycanda həm iqtisadi, həm siyasi sahədə aparılan islahatlar, qazanılan uğurlar bizdə nikbinlik hissi oyadır. Eyni zamanda, Azərbaycanda siyasi proseslər də çox müsbət istiqamətdə gedir. İctimai-siyasi proseslər demək olar ki, iqtisadi və siyasi islahatların nəticəsidir. Belə olan halda, Azərbaycanda istənilən məsələ həll edilə bilər və siyasi iradəmiz, proqramlarımız bizi bütün bu işlərə yaxınlaşdırır.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycanın möhtəşəm qələbələrinin memarı

Müasir Azərbaycan dövlətçiliyinin banisi, ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində ifadə etdiyi "Mən ona özüm qədər inanıram" qətiyyəti ölkəmizin tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Xalqının Prezident İlham Əliyevə göstərdiyi etimad müasir çağırışlara, qlobal siyasətə, yeni iqtisadi münasibətlər sisteminə inteqrasiyanın əsasını qoymuşdur. 2003-cü ildə ilk dəfə Prezident seçildiyi zaman "Mən hər bir azərbaycanlının Prezidenti olacam" şüarı qısa zamanda əməli fəaliyyətdə öz təsdiqini tapdı – "Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır" qətiyyəti vətəndaşın maraqlarını, sosial rifahı dövlətin əsas prioritetinə çevirdi. Prezident İlham Əliyev vətəndaş məmnuniyyətinin təmini faktorunu "güclü xalq-güclü dövlət" prinsipinə transformasiya etdi. 19 il öncə bütün sahələrdə çoxvektorlu inkişaf mərhələsinin əsasını qoyan Prezident İlham Əliyev müasir Azərbaycanın beynəlxalq iqtisadi-siyasi sistemdəki yerini, nüfuzunu müəyyənləşdirdi, regional güc mərkəzi statusunda qlobal proseslərə təsir imkanlarını genişləndirdi.

Bu təqdimatın arxasında meqafəaliyyət mexanizmi, konsepsiyalılıq, praqmatiklik və siyasi iradə dayanırdı. Bütün sferalarda əldə olunan nailiyyətlərlər göz önündə idi – Azərbaycan ən qısa müddətdə, böyük sürətlə Cənubi Qafqazın siyasi-iqtisadi aktoruna çevrildi. Düzgün qurulmuş iqtisadi siyasət milli maraqlara söykənən xarici siyasət kursunun hədəflərini müəyyənləşdirdi. Azərbaycan dünyanın beynəlxalq tribunalarının etibarlı simasına, böyük dövlətlərin və təşkilatların ən yaxın tərəfdaşına çevrildi. Paralel olaraq inkişaf etdrilən daxili və xarici siyasət tandemi 2008, 2013 və 2018-ci ildə xalqın yenidən öz liderinə ən yüksək etimadı nümayiş etdirməsi ilə nəticələndi. 200 illik tarixində ən böyük hərbi-siyasi qələbəsini yaşayan və yaşadan, ərazi bütövlüyümüzün təmin edilməsində ən böyük paya sahib, müasir dünya tarixinə qızıl hərflərlə öz müzəffər Zəfərini həkk etmiş cənab İlham Əliyev xalqının inamının və etimadının tək ünvanına çevrildi…

***

2018-ci ilin 11 aprel seçkiləri Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik oldu – Xalq həmin gün özünün 15 illik qısa keçmişinə qiymət verməklə yanaşı, gələcək inkişafının ştrixlərini müəyyənləşdirdi. Regional səviyyədə qarşıya qoyulan prioritetlərin hər birini əldə etmiş Azərbaycan, artıq qlobal hədəflər uğrunda mübarizə aparacaqdı. Azərbaycan seçicisinin mütləq əksəriyyətinin – 86,02 faizinin etimadını qazanan cənab İlham Əliyev ötən 15 ilin iqtisadi, sosial, siyasi hesabatını gələcək planlarının təməli adlandırdı: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Andçimə mərasimində möhtərəm Prezidentin bu fikirləri Azərbaycanın gələcək inkişafının strateji yol xəritəsi idi. Xalqın seçimini şərtləndirən mühüm amillər Azərbaycan dövlətçiliyinin əsaslarının ciddi şəkildə möhkəmləndirilməsi, dövlətimizin güclənməsi, iqtisadiyyatın şaxələndirilməsi ilə məhdudlaşdımırdı. Xalq cənab İlham Əliyevin ən böyük, bəlkə də tarixi bir uğura imza atacağına qəlbən inanmışdı. Bu inam hədəfə gedən yolda dövlət başçısı üçün ən böyük stimula çevrildi.

Tarixi Qarabağ zəfərinə gedən yolda Prezident İlham Əliyev dövlətin siyasi-iqtisadi dayaqlarını daha da möhkəmləndirirdi. İlmə-ilmə, kərpic-kərpic hörulən, islahatlara əsaslanan bu siyasət günümüzün rakursundan bəlkə də daha aydın görünür. Ölkədə yeni siyasi konfiqurasiyanın qurulması, siyasi münasibətlərdə yeni dialoqun mühitinin formalaşdırılması, iqtidar ilə müxalifət arasında əlaqələrin daha da möhkəmləndirilməsi, siyasi parityaların fəaliyyətinin gücləndirilməsi üçün görülən işlər və nəhayət, bütün bunların həyata keçirilməsi üçün nümayiş olunan böyük siyasi iradə Azərbaycanın inkişaf tarixində yeni bir mərhələnin başlanğıcını qoydu.

Siyasi sferada yaranan qarşılıqlı etimad mühiti siyasi palitranın dövlətin qəbul etdiyi qərarlara münasibətdə nümayiş etdirdiyi mövqedə özünü bariz şəkildə göstərdi. İstər 2020-ci ilin yayında baş vermiş Tovuz hadisələri zamanı, istərsə də Vətən müharibəsi dövründə Azərbsaycanın siyasi partiyaları, qeyri-hökumət təşkilatları və digər təsisatlar dövlətin apardığı siyasəti dəstəklədiyini bildirdi, cənab Prezidentin ətrafında sıx birləşdi.

Vətən müharibəsi Azərbaycan xalqının öz liderinin rəhbərliyi ilə torpaqlarının azadlığı uğrunda mübarizəyə çevrildi. Dövlət başçısı illərdir ki, beynəlxalq tribunalardan səslənldirdiyi Azərbaycan həqiqətlərini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bu dəfə fərqli bir mənzərədə: dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevi heyranlıqla izləyirdi. Hətta ölkəmizə qarşı təxribat aparmaq üçün təlimatlandırılmış aparıcı KİV-lərin tanınmış nümayəndələri belə ölkə başçısının faktlara əsaslanan dolğun cavabları qarşısında tərk-silah olundular.

***

Azərbaycanın müasir tarixinin ən böyük uğuru şəriksiz olaraq Qarabağ müharibəsində əldə olunan qələbəmizdir. Azərbaycan xalqının 2018-ci ildə Prezident İlham Əliyevə göstərdiyi etimad bir həqiqətin üzərinə növbəti dəfə işıq saldı – Prezident İlham Əliyev modern cəmiyyətdə lider obrazının ən mühüm keyfiyyətlərini özündə birləşdirən şəriksiz liderdir. Dövlət başçısı dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin milli-strateji maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu isbatlayıb. Məhz Prezident İlham Əliyevin uğurla yürütdüyü siyasət nəticəsində ölkəmiz çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü olmayıb. Bunun üçün isə ilk növbədə, ölkə iqtisadiyyatı özünün inkişaf tempini artıraraq dünyanın apırıcı reytinq cədvəllərində əks olundu, ordu quruculuğu ən müasir standartlara uyğunlaşdırıldı, sosial problemlərin həlli, həssas təbəqənin mənafeyinin təmini əsas prioritet kimi müəyyənləşdirildi. Azərbaycan Ordusu ilk dəfə dünyanın 50 ən güclü ordusu sırasında yer aldı. Müdfiə xarakterli məhsulların daxili istehsalı gücləndirildi. Ordu komplektləşdirildi.

2020-ci il Vətən müharibəsi Prezident İlham Əliyevin əzmli, qətiyyətli siyasətçi və dövlət başçısı olmaqla yanaşı, güclü strateq, hərbi incəlikləri ən yüksək səviyyədə təhlil edərək qərar verən lider olduğunu bir daha sübut etdi. Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini bir daha ortaya qoydu. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın Silahlı Qüvvələri qısa müddətdə Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi.

***

Prezident İlham Əliyevin son 19 ildə ölkəmizə qazandırdığı ən böyük uğurlardan biri də bu gün Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində müstəqil siyasət həyata keçirən güclü və nüfuzlu dövlət, həmçinin etibarlı tərəfdaş kimi tanınmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs ölkəmizin maraqlarının təmin olunmasına xidmət edir, qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir. Son 19 ildə Azərbaycan bütün ölkə və təşkilatlara münasibətdə vahid mövqedən çıxış edib, dostluq və tərəfdaşlıq münasibətlərini hansısa geostrateji təsirə məruz qalmadan müəyyənləşdirib, ikitərəfli və çoxtərəfli münasibətlərdə, dünya siyasətində fəal təmsilçilikdə ali geosiyasi iradəsini nümayiş etdirib. Respublikamızın daxili və xarici siyasət kursunun strateji episentri milli maraqlardır. Yəni Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara əsaslanan çoxvektorlu və praqmatik xarici siyasət həyata keçirilir, ikitərəfli və çoxtərəfli münasibətlərdə qarşılıqlı faydalı, bərabərhüquqlu əməkdaşlıq prinsipi əsas götürülür.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan qarşıdurma, rəqabət məkanı deyil, tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu və real siyasi proseslərdə özünü doğrultması beynəlxalq münasibətlərin hazırkı mürəkkəb mərhələsində Azərbaycanı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir. Nəticə etibarilə, Azərbaycana olan maraq və diqqət ölkəmizin beynəlxalq arenada qazandığı yüksək nüfuzun əyani göstəricisidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, qarşılıqlı faydalı əməkdaşlığın inkişafına mühüm töhfələr verən dövlət kimi tanınması və qəbul olunmasını təmin edib.

Bununla yanaşı, regionda sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan strateji əhəmiyyətli layihələr reallaşdırıb, Avrasiyanın yeni enerji və nəqliyyat xəritəsini formalaşdıraraq yeni geostrateji əməkdaşlıq platformaları yaradıb, regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfələr verib. Azərbaycanın təşəbbüsü ilə yeni əməkdaşlıq platformaları yaranıb – üçtərəfli, dördtərəfli formatda diplomatik münasibətlərin təməli qoyulub. Azərbaycan yeni geostrateji şəraitdə beynəlxalq dialoq və əməkdaşlıq mərkəzinə çevrilib, qlobal xarakterli – strateji əhəmiyyətli tədbirlərə uğurla ev sahibliyi edib.

2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi səmərəli xarici siyasət kursunun nəticəsi, ölkəmizə yüksək beynəlxalq etimadın göstəricisidir. Respublikamızın 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilməsi, 2019-2022-ci illərin isə Azərbaycanın Hərəkata sədrlik dövrü kimi müəyyənləşdirilməsi də strateji əhəmiyyətə malikdir. Bu amil Vətən müharibəsi dövründə də özünü bütün sferalardan nümayiş etdirdi. 17 il ərzində qazanılan dostluqlar, qurulan əməkdaşlıqlar, yaradılan tərəfdaşlıqlar Azərbaycanın haqlı mübarizəsinə öz dəstəyini göstərdi : bütün beynəlxalq təşkilatlar ölkəmizin öz torpaqlarını düşmən işğaldından azad etməsini alqışladı, qiymətləndirdi.

***

Sosial dövlət olan Azərbaycanın əldə etdiyi uğurların təməlində düzgün istiqamətləndirilmiş və dayanıqlı iqtisadi siyasət durmaqdadır. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər". 2003-2019-ci illərdə, qlobal pandemiyaya qədərki dövrdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu, dünyada rekord göstəricidir. Qeyd edilən 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 27 dəfə artıb. 2003-cü ildə valyuta ehtiyatları 1,8 milyard dollar idisə, bu rəqəm 2019-cu ildə 51, 2020-ci ilin ilk rübündə isə 52 milyard dollara çatıb. Ölkəmizdə yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşüb. Bu dövrdə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artıb. 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilib.

Xüsusilə vurğulanmalıdır ki, 2019-cu ildə sosial sahədə genişmiqyaslı islahatlar həyata keçirilməklə əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə isə daha çox artırıldı, yeni sosial təminat növləri formalaşdırıldı. Qlobal pandmiyanın fəsadlarına baxmayaraq 2020-ci və 2021-ci illərdə də sosial islahatlar davam etdrildi və əlavə olaraq əhalinin həssas qrupları üçün ünvanlı dəstək proqramları icra olundu. Postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdləri orta hesabla 60 faiz artırıldı, yeni təqaüd növləri təsis olundu.

2018-2021-ci illərdə ölkəmizdə orta aylıq əməkhaqqında 37, median əməkhaqqında (ədədi qaydada hesablanan) 74, əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım baş verib. Bu müsbət proseslər əməkhaqqı fondunda da iki dəfəyə yaxın artımı təmin edib. 2018-2021-ci illərdə sosial təminat (pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım) üzrə illik xərclər 2,4 milyard manat və ya 60 faiz artaraq 6,4 mlrd. manata çatıb.

Xüsusi olaraq vurğulanmalıdır ki, istər birinci, imstərsə də ikinci Qarabağ müharibəsi əlilləri dövlətin sosial siyasət kursunda xüsusi yer tuturlar. Dövlət başçısının imzaladığı 23 dekabr 2021-ci il tarixli fərmanla 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşları, vəfat etmiş şəxslərin ailə üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təmin olunub.

Bununla yanaşı, 2020-ci ildə baş verən Vətən müharibəsinin iştirakçıları da diqqətdən kənarda qalmayıb. Dövlət başçısının imzaladığı müvafiq sərəncamla onlara "Müharibə veteranı" adı və "Azərbaycan Respublikasının Müharibə Veteranı" vəsiqəsi verilib. "Müharibə veteranı" adı və vəsiqəsi verilən şəxslərə 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib.

Vətən müharibəsindən sonra dövlət başçısının tapşırığına əsasən, şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan genişmiqyaslı sosial dəstək işləri artıq 41 min şəxsi əhatə edib, onlara 47 min xidmət göstərilib. Belə ki, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərindən və Vətən müharibəsi əlillərindən ibarət 10351 şəxsə 20644 sosial ödəniş (Prezidentin aylıq təqaüdü, pensiya və ya müavinət) təyin edilib. Vətən müharibəsində yaralanmış hərbi qulluqçulardan artıq 2500 şəxsə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və müvafiq sosial ödənişlər təyin olunub. Bütün bunlarla paralel olaraq isə Qarabağda möhtəşəm bərpa, quruculuq işləri davam etdirilib. Qısa zaman kəsiyində tikilən beynəlxalq statuslu üç Hava Limanı, bərpa olunan infrastruktur, çəkilən yollar, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri Azərbaycanın iqtsadi gücünü bütün dünyaya nümayiş etdirdi.

44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbə mövqelərimizi siyasi meydanda daha da möhkəmləndirir, Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü dönməz edir. Prezident İlham Əliyevin postmüharibə dövründə regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunmasına istiqamətlənmiş beynəlxalq siyasəti dünya tərəfindən qəbul olunmuş və dövlət başçıların iştirakı ilə keçirilən üçtərəfli görüşlərdə Azərbaycanın müəyənnləşdirdiyi əsas prinsipləri əsasında danışıqlar təşkil olunur. Ümumilli lider Heydər Əliyevin qeyd etdiyi "Azərbaycan dünyaya Günəş kimi doğacaq" ifadəsi bu gün Prezident İlham Əliyevin qazandırdığı uğurları sayəsində real həyatda öz əksini tapır.

Nəticə etibarilə, 2018-ci ilin aprelində xalqın etimadı əsasında yenidən Prezident seçilən böyük dövlət xadimi, müasir dövrümüzün zəfər tarixini və salnaməsini yazan məharətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurla inkişaf edərək yeni zirvələr fəth edir. XXI əsrdə müstəqil və qüdrətli Azərbaycanın möhtəşəm tarixi nailiyyətlərinin memarı Prezident İlham Əliyevdir.

Azər BADAMOV,
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı,
YAP İdarə Heyətinin üzvü